T

# AzAK T005-05

## Təkrar akkreditasiya təlimatı

## 1. Məqsəd

Bu sənədin məqsədi uyğunluğu qiymətləndirən qurumların (UQQ) təkrar akkreditasiyası ilə bağlı prosesin izahıdır.

## 2. Əhatə dairəsi

Bu sənəd AzAK tərəfindən akkreditasiya edilmiş qurumların təkrar akkreditasiya proseslərini əhatə edir.

## 3. Termin və təriflər

Bu təlimatda ISO/IEC 17000, ISO/IEC 17011 standartlarında, AzAK P005 prosedurunda və yerli qanunvericilik aktlarında qeyd olunmuş termin və təriflərdən istifadə edilmişdir.

## 4. Tətbiq

AzAK akkreditasiya attestatının qüvvədəolma müddətinin bitməsinə 8 ay qalmış UQQ-yə akkreditasiya attestatının qüvvədəolma müddətinin bitməsinə dair xəbərdarlıq göndərməklə, onun akkreditasiyasının fasiləsiz davam etməsi üçün təkrar akkreditasiya edilməsini təşviq edir. Təkrar akkreditasiya prosesinin sxemi əlavə 1-də verilmişdir.

Təkrar akkreditasiya zamanı qiymətləndirmə cari akkreditasiya attestatının qüvvədəolma müddətinin bitmə tarixinə qədər yekunlaşmasa, cari akkreditasiya attestatının bitmə tarixi ilə təkrar akkreditasiya qiymətləndirməsinin yekun qərarı arasındakı dövrdə UQQ AzAK nişanından istifadə edərək uyğunluğun qiymətləndirilməsi fəaliyyəti ilə məşğul ola bilməz. UQQ akkreditasiya attestatının qüvvədəolma müddətinin bitməsindən sonra təkrar akkreditasiya üçün müraciət edərsə, bu mürciətə ilkin müraciət kimi baxılacaqdır.

UQQ təkrar akkreditasiya üçün gec müraciət edərsə (akkreditasiya attestatının qüvvədə olma müddətinin başa çatmasına 1 aydan az qalarsa) və ya təkrar akkreditasiyanın müəyyən edilmiş müddət ərzində həyata keçirilməsi UQQ-yə görə gecikərsə, və ya həyata keçirilməzsə, təkrar akkreditasiyanın həyata keçirilməməsi səbəbindən akkreditasiya attestatı yenilənmir, akkreditasiya attestatının qüvvədə olma müddəti bitir. Bu halda UQQ təkrar akkreditasiya olunmaq üçün deyil, ilkin akkreditasiya üçün müraciət etməlidir.

Təkrar akkreditasiya ilkin akkreditasiya kimi planlaşdırılır, həyata keçirilir, sənədləşdirilir.

Təkrar akkreditasiya üçün plan hazırlanan zaman UQQ-nin bütün akkreditasiya sahəsini əhatə edəcək şəkildə işçi heyəti və digər resursları təhlil edilir və akkreditasiya sahəsindəki fəaliyyətlərə uyğun olaraq qiymətləndirmə komissiyası yaradılır. Bu zaman əvvəlki akkreditasiya tsiklində qiymətləndirilməmiş fəaliyyət sahələri, yerləşmə yerləri, həyata keçirilmiş qiymətləndirmələrlə bağlı qeydlər risk əsaslı yanaşma çərçivəsində nümunə seçmə

üsulu ilə seçilmiş digər sahələr və yerləşmə yerləri qiymətləndirilir.

UQQ-nin təkrar akkreditasiya barədə müraciətinə AzAK P005 proseduruna uyğun baxılır və qiymətləndirmənin müsbət nəticələri əsasında yeni akkreditasiya attestatı verilir.

Təkrar akkreditasiya barədə qərarın qəbulu müəyyən müddətə gecikərsə, bu akkreditasiya attestatının müddətinin təkrar akkreditasiya barədə qərarın qəbul ediləcəyi tarixə qədər, yəni daha uzun müddətə uzadılması kimi başa düşülməməlidir. Akkreditasiya attestatı verildiyi tarixdən 3 (üç) il müddətində etibarlıdır. Nəzərə alınmalıdır ki, təkrar akkreditasiyanın sonunda akkreditasiyadan imtina edilməsi halı istisna olunmur.

Təkrar akkreditasiya zamanı qiymətləndirmə cari akkreditasiya attestatının qüvvədəolma müddətinin bitməsindən əvvəl və sonra yekunlaşarsa, aşağıdakılar nəzərə alınmalıdır:

- Qiymətləndirmənin müsbət nəticələri əsasında quruma verilən akkreditasiya attestatı təkrar akkreditasiya barədə qərarın qəbul olunduğu tarixdən başlayaraq 3 (üç) il müddətində etibarlıdır;
- Qiymətləndirmənin müsbət nəticələri əsasında qurumun təkrar akkreditasiyası barədə qərar cari akkreditasiya attestatının qüvvədən düşdüyü tarixdən sonra verilərsə, qurum cari akkreditasiya attestatının qüvvədən düşmə tarixi ilə təkrar akkreditasiya barədə qərarın qəbul edilyi tarix arasında akkreditasiya nişanından istifadə edə bilməz;
- Qərarda yeni akkreditasiya attestatının qüvvəyə mindiyi tarix və cari akkreditasiya attestatının qüvvədən düşdüyü barədə qeyd olunmalıdır;
- Təkrar akkreditasiya qiymətləndirilməsi uğurla nəticələndiyi halda akkreditasiya attestatında aşağıdakı tarixlər qeyd edilir:
    - İlkin akkreditasiya attestatının verilməsi tarixi;
    - Akkreditasiya attestatının yenilənməsi tarixi;
    - Akkreditasiya attestatının qüvvədə olma tarixi.

Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 iyul tarixli 252 nömrəli qərarı ilə təsdiq edilmiş “Akkreditasiya edilmiş uyğunluğu qiymətləndirən qurumların reyestrinin aparılması Qaydası”na 2 nömrəli əlavəyə əsasən akkreditasiya attestatının qeydiyyat nömrəsinin strukturu aşağıdakı kimidir:

**AzAK tərəfindən verilmiş akkreditasiya attestatının qeydiyyat nömrəsinin strukturu**

AZ XX XXXX XX XX

Qeydiyyat ili

Yenidən verilmiş attestat blanklarının sayı

Qeydiyyatın ardıcıllıq nömrəsi

Qeydiyyat obyektinin kodu

ISO 3166 beynəlxalq standartı üzrə Azərbaycan Respublikasının kodu

**Qeydiyyat obyektlərinin kodu:**

“01” - sınaq laboratoriyaları;

“02” - malın (xidmətin, işin) sertifikatlaşdırılmasını aparan qurumlar;

“03” - idarəetmə sistemlərinin sertifikatlaşdırılmasını aparan qurumlar;

“04” - işçi heyətinin sertifikatlaşdırılmasını yerinə yetirən qurumlar;

“05” - inspeksiya orqanları;

“06” - etalon material istehsalçıları;

“07” - ölçmələrin vəhdətinin təmin edilməsinin dövlət tənzimlənməsi sahəsinə aid olan ölçmə metodikalarının (metodlarının) attestasiyasını aparan qurumlar;

“08” - tipin təsdiq edilməsi məqsədi ilə standart nümunələrin və ölçmə vasitələrinin sınaqlarını aparan qurumlar;

“09” - ölçmə vasitələrinin yoxlanılmasını aparan qurumlar;

“10” - layihə-konstruktor və texnoloji sənədlərin məcburi metroloji ekspertizasını aparan qurumlar.

**Qeydiyyatın ardıcıllıq nömrəsi:**

İlkin akkreditasiya barədə qərar qəbul edildikdən sonra akkreditasiya attestatı hazırlanır, akkreditasiya attestatına qeydiyyat nömrəsi verilir. Nömrələr 4 rəqəmlidir və ardıcıl alaraq verilir. Məsələn: 0001, 0002 və s.

Təkrar akkreditasiya, akkreditasiya attestatının yenidən hazırlandığı digər hallarda UQQ-yə yeni akkreditasiya attestatı verilir. Lakin akkreditasiya attestatının qeydiyyat nömrəsi dəyişmir, ilkin akkreditasiya attestatının qeydiyyat nömrəsi saxlanılır.

**Yenidən verilmiş attestat blanklarının sayı:**

Təkrar akkreditasiya, akkreditasiya attestatının yenidən hazırlandığı digər hallarda (məsələn: UQQ-nin adının, ünvanının dəyişdiyi hallar, akkreditasiya attestatının itirildiyi hallar

və s. hallarda attestat yenidən hazırlanarsa) attestat blanklarının sayı ardıcıl olaraq artırılır və 2 rəqəmdən ibarət olur, məsələn, 02, 03 və s.

**Qeydiyyat ili**

Akkreditasiya attestatının qeydiyyat ili ilkin akkreditasiya barədə qərarın qəbul edildiyi il götürülür.

Təkrar akkreditasiya, akkreditasiya attestatının yenidən hazırlandığı digər hallarda (məsələn: UQQ-nin adının, ünvanının dəyişdiyi hallar, akkreditasiya attestatının itirildiyi hallar və s. hallarda attestat yenidən hazırlanarsa) akkreditasiya attestatının qeydiyyat ili dəyişmir.

UQQ təkrar akkreditasiya üçün müraciət etmədiyi halda akkreditasiya tsikli bitmiş sayılır. Bu halda UQQ təkrar akkreditasiya olunmaq üçün deyil, ilkin akkreditasiya üçün müraciət edə bilər. Bu halda qiymətləndirmənin müsbət nəticələri əsasında quruma yeni qeydiyyat nömrəli yeni akkreditasiya attestatı verilir.

**Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya attestatının nümunəsi**

Uyğunluğun qiymətləndirilməsi sahəsində akkreditasiya attestatının nümunəsi Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 iyul tarixli 252 nömrəli qərarı ilə təsdiq edilmişdir.

Təkrar akkreditasiya barədə qərar qəbul edildikdən sonra hazırlanan akkreditasiya attestatının qeydiyyat nömrəsindən sonra “TA” işarəsi qoyulmalıdır.

Nümunədəki “Verilmə tarixi” bölməsində akkreditasiya attestatının təsdiqləndiyi (imzalandığı) tarix (ilkin akkreditasiya barədə qərarın qəbul edildiyi tarix və ya qərar qəbulundan hər hansı sonrakı tarix) qeyd edilir.

Nümunədəki “Etibarlıdır” bölməsində akkreditasiya attestatının qüvvədəolma müddəti göstərilir. Akkreditasiya attestatının qüvvədəolma müddəti yalnız təkrar akkreditasiya barədə qərar qəbul edildikdən sonra dəyişdirilir. Akkreditasiya sahəsində dəyişiklik və ya UQQ-nin adının, ünvanının dəyişdiyi hallar, akkreditasiya attestatının itirildiyi hallarda və s. akkreditasiya attestatı yenidən hazırlanarsa, akkreditasiya attestatının qüvvədəolma müddəti dəyişdirilmir.

Təkrar akkreditasiya, akkreditasiya attestatının yenidən hazırlandığı digər hallarda akkreditasiya attestatı üzərindəki dəyişiklik hissəsində say ardıcıl olaraq artırılır və 2 rəqəmdən ibarət olur, məsələn, 02, 03 və s. Bu say ilkin akkreditasiya attestatının verildiyi tarixdən etibarən ardıcıl dəyişir, ilkin və təkrar akkreditasiya tsikli dövründə öz ardıcıllığını saxlayır.

## 5. Səlahiyyət və məsuliyyətlər

Bu təlimatda əks etdirilmiş proseslərin həyata keçirilməsinə və müvafiq qeydlərin aparılmasına görə akkreditasiya üzrə şöbələr məsuliyyət daşıyırlar.

## 6. Əlaqəli sənədlər

- Azərbaycan Respublikası Nazirlər Kabinetinin 2015-ci il 2 iyul tarixli 252 nömrəli qərarı;
- ISO/IEC 17011 “Uyğunluğun qiymətləndirilməsi- Uyğunluğun qiymətləndirilməsi qurumlarını akkreditasiya edən orqanlara tələblər;
- AzAK P005 “Uyğunluğu qiymətləndirən qurumların akkreditasiyası proseduru”.

## 7. Təlimatda edilmiş dəyişikliklər

| Dəyişiklik №si | Səhifə №si | Dəyişikliyin tarixi | Dəyişiklik səbəbi |
|---|---|---|---|
| 01 | 03 | 27.12.2024 | Təlimat AzAK-ın fəaliyyətinə uyğunlaşdırıldı |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |
| | | | |

*Təkrar akkreditasiya attestatının nümunəsi*

Azərbaycan Respublikasının İqtisadiyyat Nazirliyi yanında
Antiinhisar və İstehlak Bazarına Nəzarət Dövlət Xidməti

"Azərbaycan Akkreditasiya Mərkəzi" publik hüquqi şəxs

# AKKREDİTASİYA ATTESTATI

## № AZ 00.0000.00.00 TA

Verilmə tarixi: 00.00.0000
Yenilənmə tarixi: 00.00.0000
Etibarlıdır: 00.00.0000

Az1154, BAKI şəhəri,
Zeynal Xəlil küçəsi, ev 37
Tel.: (+994 12) 565 35 50
E-poçt: azak@accreditation.gov.az

*Əlavə 1*

*Təkrar akkreditasiya prosesinin sxemi*



| **Fəaliyyətin icra edildiyi vaxt** *(attestatın bitmə tarixinə qalmış ay sayı)* | **AzAK tərəfindən icra edilən fəaliyyət** | **Qeyd** |
|---|---|---|
| 8 | UQQ-nin akkreditasiya attestatının qüvvədə olma müddətinin bitməsinə dair xəbərdarlığın göndərilməsi | UQQ-yə ünvanlanan məktubda akkreditasiya attestatının qüvvədən düşmə tarixi bildirilir və tövsiyə olunur ki, təkrar akkreditasiya müraciətini 1 ay ərzində etsin. |
| 7 | Təkrar akkreditasiya üçün tövsiyə olunan müraciət dövrü | |
| 7-ci və 4-cü aylar aralığı | Təkrar akkreditasiya müraciətinin baxılması, resurs araşdırılması, qiymətləndirmə komissiyasının yaradılması, ödənişin edilməsi və akkreditasiya qiymətləndirilməsinin həyata keçirilməsi | UQQ-yə tövsiyə olunur ki, akkreditasiya qiymətləndirilməsinin gecikməməsi üçün AzAK-la əməkdaşlıq edərək, müqavilə, ödəniş məsələlərini vaxtına həll edib, yerində qiymətləndirmə üçün şərait yaratsın. |
| 4-cü və 1-ci aylar aralığı | Akkreditasiya qiymətləndirilməsi zamanı uyğunsuzluq aşkar edildiyi halda uyğunsuzluğun aradan qaldırılması | Akkreditasiya qiymətləndirilməsi zamanı uyğunsuzluq aşkar edildiyi halda uyğunsuzluqların aradan qaldırılması üçün UQQ-yə 3 ay vaxt verilir |
| Sonuncu 1 ay | AzAK tərəfindən qərarın qəbul edilməsi | Akkreditasiya qiymətləndirilməsinin nəticəsində uyğunsuzluq aşkar edilərsə, uyğunsuzluqların aradan qaldırılması üçün təqdim edilmiş sübutlar qiymətləndirmə komissiyası tərəfindən yoxlanılır. Uyğunsuzluqların aradan qaldırıldığı sübut olunarsa, sənədlər qərar qəbulu üçün qərarverici heyətə təqdim edilir və qərar qəbul olunur.<br>UQQ-nin təqdim etdiyi sübutlar yetərli olmazsa, bu zaman akkreditasiya prosesi cari akkreditasiya attestatının müddətinin bitməsi tarixindən sonra da davam edəcəkdir. |
| Kəsinti dövrü | Kəsinti dövründə UQQ akkreditasiya nişanından istifadə edə bilməz. | |